**Satıram**



Moldayı, salmadı el dil boğaza…
Eybi yox, gərçi qoyulduq loğaza,
Yaz bu elanımı da bir kağaza:
Açmışam Reydə geniş bir mağaza,

Çox ucuz qiymətə hər şəy satıram,
Ay alan! Məmləkəti – Rey satıram!

Mağazamda tapılır hər cürə zad:
Cami-cəm, rəyətü-Key, təxti-Qubad;
Gərçi bazarımı etməkdə kəsad
Səy edir bir para İrani nəjad

Leyk mən baxmayıram, hey satıram,
Ay alan! Məmləkəti – Rey satıram!

Nə gərəkdir mənə bir munca ümur,
Ki, edə qəlbimi bihissü hüzür?
Babama vermədi əl "Abəki-şur",
Deyiləm naxələfü nabəşüur.

Qəsri-Şirin, əsəri Key satıram!
Ay alan! Məmləkəti – Rey satıram!

İstəməm nuri, qaranlıq sevirəm,
Mülki İrani dumanlıq sevirəm,
Boşlayıb şəhri, yabanlıq sevirəm,
Bəsdi şahlıq, dəxi xanlıq sevirəm!

Səbzivar ilə Məyamey satıram!
Ay alan! Məmləkəti – Rey satıram!

Söz mənim, ev mənim, əsrar mənim,
İrzü namus mənim, ar mənim,
Mal mənim, məsləhəti-kar mənim
Satıram, dövləti – Qacar mənim,

Kimə nə dəxli ki, mən şey satıram?

Ay alan! Məmləkəti – Rey satıram!

Şah məşrutə – pənah olmaq isə,
El qoyan vəzlə şah olmaq isə,
Guş bir əmri-süpah olmaq isə,
Şah olub həmdəmi-ah olmaq isə,

Xan olub, nuş eləyib mey, satıram!
Ay alan! Məmləkəti – Rey satıram!

---

Mətni yığdı: Nərgiz Abadi
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova